## *ALİ MƏCLİSİN İCLASI*

*21 aprel 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini* ***Bəxtiyar Məmmədov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri, əziz tələbələr, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının yeddinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 43 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 43 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Həmçinin iclasda Ali Məclisdə təcrübə keçən Naxçıvan Dövlət Universitetinin tələbələri də iştirak edir, onların təcrübə müddətində əldə etdikləri bilik və bacarıqların gələcək fəaliyyətlərində mühüm rol oynayacağına ümid edir və hər birinə uğurlar arzulayıram.

Hörmətli deputatlar, bugünkü iclasın gündəliyinə 2 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanaraq göndərilmiş qanun layihəsi baxılması üçün Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il 17 aprel tarixdə keçirilən plenar iclasında Daxili Nizamnamənin tələblərinə uyğun olaraq ikinci oxunuşda qəbul edilmişdir.

Ali Məclisin Daxili Nizamnaməsinin 20-ci maddəsinə əsasən ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı komitəyə qaytarılır. Bu iş başa çatdıqdan sonra aparıcı komitə üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Ali Məclisin sədrinə göndərir. Ali Məclisin sədri qanun layihəsinə üçüncü oxunuşda baxılması məsələsini Ali Məclisin iclasının gündəliyinə salır.

20 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilmiş, komitə iclasında deputatlar tərəfindən layihə ilə bağlı hər hansı təklif və ya irad bildirilməmişdir. Qanun layihəsi Daxili Nizamnaməyə uyğun olaraq üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Mahir müəllim!

**M.İsmayılov,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

Müzakirəyə təqdim olunan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi muxtar respublikada aparılan genişmiqyaslı hüquqi və institusional islahatların məntiqi davamıdır. Bu layihə təkcə texniki xarakterli dəyişiklik deyil, eyni zamanda parlament ənənələrinin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində atılmış prinsipial addımdır.

Bu dəyişiklikləri xarakterizə edən ən mühüm məqam deputatın üzərinə düşən məsuliyyətin mahiyyətcə yeni müstəviyə keçməsidir. Hesab edirəm ki, təklif olunan dəyişikliklər deputat statusunu sadəcə təminatlarla deyil, həm də ciddi vəzifə və öhdəliklərlə möhkəmləndirilməsini hədəfləyir. Qeyd etmək istəyirəm ki, qanunvericilik fəaliyyətində iştirakın keyfiyyət göstəricilərinin artırılması hər birimizdən daha yüksək peşəkarlıq və operativlik tələb edir. Bizim statusumuz xalqın etimadına əsaslanır və bu dəyişikliklər həmin etimadı doğrultmaq üçün hüquqi çərçivəni daha da gücləndirir.

Hörmətli həmkarlar!

Məsuliyyətin artırılması fəaliyyətin effektivliyi deməkdir. Bu qanun layihəsində nəzərdə tutulan dəyişikliklər əslində xalqa xidmət yolunda bizim öhdəliklərimizi və məsuliyyətimizi bir qədər də artırır. Əminəm ki, qəbul ediləcək bu dəyişikliklər Naxçıvan Muxtar Respublikasında qanunvericilik fəaliyyətinin daha səmərəli təşkili və institusional inkişafın gücləndirilməsi istiqamətində öz müsbət nəticələrini verəcəkdir.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Mahir müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Təhminə xanım!

**T.Babayeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi mühüm əhəmiyyət kəsb edir. Təklif olunan dəyişikliklər bütövlükdə deputat fəaliyyətinin müasir çağırışlara və idarəetmədə yeni yanaşmalara uyğunlaşdırılması baxımından xüsusi aktuallıq daşıyır.

Qanun layihəsində əksini tapan müddəalar deputatların hüquqi statusunun daha da təkmilləşdirilməsinə, sosial təminatının gücləndirilməsinə və maddi təminat mexanizmlərinin daha sistemli şəkildə qurulmasına yönəlmiş kompleks yanaşmanı özündə ehtiva edir. Bu isə öz növbəsində, deputatların fəaliyyətinin keyfiyyətinə birbaşa müsbət təsir göstərən mühüm amillərdəndir.

Təklif edilən dəyişikliklər deputatların həm fəaliyyət dövründə, həm də səlahiyyət müddəti başa çatdıqdan sonrakı mərhələdə sosial müdafiəsinin daha etibarlı və davamlı əsaslar üzərində qurulmasına şərait yaradır. Ümumilikdə, qeyd olunan qanun layihəsi deputat fəaliyyətinin institusional əsaslarının möhkəmləndirilməsinə, onların hüquqi müdafiəsinin gücləndirilməsinə və sosial rifahının yüksəldilməsinə xidmət edir. Bununla yanaşı, dəyişikliklər qanunvericilik prosesində şəffaflığın artırılmasına, hesabatlılığın gücləndirilməsinə və nəticəyönümlü fəaliyyət modelinin formalaşdırılmasına töhfə verəcək.

Hesab edirəm ki, təqdim olunan qanun layihəsi yalnız deputatların fəaliyyətinin təkmilləşdirilməsi baxımından deyil, bütövlükdə qanunvericilik sisteminin inkişafı və dövlət idarəçiliyinin effektivliyinin artırılması baxımından da mühüm addım kimi qiymətləndirilməlidir.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Təhminə xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Ramil müəllim!

**R.Nəbiyev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi mövcud hüquqi münasibətlərin təkmilləşdirilməsi və deputatların fəaliyyətinin daha səmərəli tənzimlənməsi məqsədini daşıyır. Eyni zamanda deputatların statusu ilə bağlı normaların daha aydın və sistemli şəkildə müəyyən olunmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, bu layihə idarəetmədə yeni yanaşmanın, hüquqi sistemdə dəqiqliyin və sosial təminat siyasətində yenilənmənin ifadəsi kimi çıxış edir. Nəticə etibarilə, təklif olunan dəyişikliklər muxtar respublikada parlament fəaliyyətinin daha sistemli, şəffaf və müasir əsaslar üzərində qurulmasına töhfə verəcək. Hüquqi dəqiqləşdirmə ilə sosial təminatın paralel şəkildə gücləndirilməsi təklif edilən qanun layihəsinin əsasını təşkil edir.

Diqqətinizə görə hər birinizə təşəkkür edir, deputat həmkarlarımı layihənin lehinə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun, Ramil müəllim!

Başqa çıxış etmək istəyən və ya təklifi olan varmı?

Buyurun, Həbibə xanım!

**H.Allahverdiyeva.** Hörmətli Bəxtiyar müəllim!

Qeyd etmək istəyirəm ki, müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin: "Deputat xalqın nümayəndəsidir, onun etimadını doğrultmalıdır… O, şəxsi maraqları deyil, xalqın maraqlarını üstün tutmalıdır." - fikri hər birimiz üçün fəaliyyət proqramıdır. Biz fəaliyyətimizdə bu ali prinsipi rəhbər tutaraq, seçicilərimizlə daim sıx təmasda olmağı, onların müraciətlərinə həssaslıqla yanaşmağı və vətəndaş məmnunluğunu təmin etməyi ən mühüm vəzifəmiz hesab edirik.

Bu gün müzakirəyə təqdim olunan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi deputat fəaliyyətinin müasir dövrün tələblərinə uyğun daha səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir. Hesab edirəm ki, təklif olunan dəyişikliklər bir sıra mühüm istiqamətləri ehtiva edir. Belə ki, deputatların sosial təminatının gücləndirilməsi onlara diqqətlərini tam şəkildə qanunvericilik prosesinə və seçicilərin problemlərinin həllinə yönəltmək üçün əlavə imkanlar yaradacaq. Qanunvericilik bazasının təkmilləşdirilməsi deputatın cəmiyyət və dövlət qarşısındakı öhdəliklərini daha dəqiq müəyyən edir ki, bu da dövlət idarəçiliyində peşəkarlığın yüksəlməsinə birbaşa xidmət edir. Bu qanun layihəsi seçicilərlə əlaqələrin daha sistemli və operativ qurulmasına, bölgələrdə keçirilən görüşlərin praktiki nəticələrinin artırılmasına geniş hüquqi zəmin yaradır. Muxtar respublikanın uzunmüddətli və dayanıqlı inkişaf strategiyasında parlament üzvlərinin üzərinə düşən vəzifələrin keyfiyyətlə icrası üçün yeni imkanlar açır.

Təqdim olunan dəyişiklikləri deputat əməyinə və parlament institutuna verilən yüksək dəyərin göstəricisi kimi qiymətləndirirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Həbibə xanım!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi 17 aprel 2026-cı il tarixdə keçirilmiş plenar iclasda müzakirə edilmiş, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il 17 aprel tarixdə keçirilən plenar iclasında Daxili Nizamnaməyə uyğun olaraq birinci oxunuşda qəbul edilmişdir.

Daxili Nizamnaməyə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklif və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir.

Qanun layihəsi ilə bağlı təklif və iradları öyrənərək qanun layihəsini ikinci oxunuşa hazırlamaq məqsədi ilə 20 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilmiş, komitə iclasında deputatlar tərəfindən layihə ilə bağlı təklif və ya irad olmamışdır. Qanun layihəsi Daxili Nizamnaməyə uyğun olaraq ikinci oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşdan qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!